Ədalət 2019.- 31 oktyabr.- S.6.

# İşə can yandırmaq məsuliyyəti dərindən dərk etmək deməkdir

**Cəbrayıl rayon 23 nömrəli tam orta məktəbin direktoru Xudiyev Məhəmməd Əli oğlu ilk iş fəaliyyətinə məzunu olduğu Cəbrayıl rayon Minbaşı kənd orta məktəbdə fizika fənnini tədris eləməklə başlayıb. Sonralar Daşveysəlli kənd tam orta nəktəbdə Təşkilatı işlər üzrə direktor müavini işləyib. 3 il Qarabağ Müharibəsində ağır döyüşlərdə iştirak edib. Müəllimliyə marağı onda atası Əli kişi oyadıb. Atası Texniki Universitetin 2-ci kurs tələbəsi olarkən Böyük Vətən Müharibəsi başlayıb və o könüllü şəkildə cəbhəyə yollanıb. Müharibədən sonra isə təhsilini davam etdirə bilməyib, çünki ailəsinə kömək etmək lazım gəlib. Özündən yaşca kiçik 4 qardaş və 4 bacısını böyüdüb , onlara təhsil verib. O İcraiyyə komitəsində, Prokurorluqda sürücü işləyib. Müəllim sənətinə sonsuz hörməti olan Əli kişi oğlunu da bu sahəyə yönəldib. Məhəmməd Xudiyevin ailəsinin müəllimlər ailəsi adlandırsaq səhv etmərik.Həyat yoldaşı Məleykə xanım tarıx müəllimi, qızı Aynur ibtidai sinif müəllimi, digər qızı Aysel isə psixoloqdur. Yeganə oğlu hərbçi sənətini seçib, mayor rütbəsinə yüksələrək Vətənin keşiyində ayıq-sayıq dayanıb. Məhəmməd müəllim 20 ildən çoxdur ki, məktəbdə direktor vəzifəsində çalışır. Məktəb ali məktəbə qəbul göstəricisi üzrə rayonlar arasında artıq 3 ildir ki, 1-ci yerə çıxır. Məktəbdə respublika səviyyəli tədbirlər yüksək səviyyədə qeyd olunur. Şagirdlər fənn olimpiadalarında iştirak edərək yüksək nailiyyətlər əldə edirlər. Maraqlı müsahib olan Məhəmməd müəllimə bir neçə sualla nüraciət etdik.**

-Dövrümüzdə məktəb direktoru olmaq və bu ağır vəzifəni daşımaq böyük məsuluyyət tələb edir. Böyük bir kollektivə rəhbərlik ermək fiziki guc və enerji serf etmək deməkdir. İşinizin öhdəsindən gəlmək üçün vaxt bölgüsünü necə həll edirsiniz?

-Bu günün tələbləri həm ağır, həm də son dərəcə məsuliyyətlidir. Ona görə də gundəlik iş cədvəlimi günün tələbləri səviyyəsində tərtib edirəm. Kollektivlə hər səhər goruşüb müzakirələr aparırıq. Şagirdlərin dərsə davamiyyətini həmişə diqqətdə saxlayıram. Hər gün işə bir saat tez gəlirəm. Çünki qarşımda duran vəzifələr həddən çoxdur. Direktor olaraq pedoqoji kollektivə rəhbərlik etmək, kadrların düzgün seçilməsini və yerləşdirilməsini təmin etmək, işçilərin ixtisasının yüksəldilməsi üçün lazımi şərait yaratmaq, tədrisin ideya-siyasi istiqamətinə, şagirdlərinin biliyinin keyfiyyətinə və davranışına, sinifdənxaric və məktəbdənkənar işin məzmununa və təşkilinə nəzaərət eymək də mənim funksiyama daxil olan vəzifələrdəndir. Məktəbdə bilavasitə tədris prosesinin təşkilinə aid olan bu funksiyalarla yanaşı, üzərimə bir sıra mürəkkəb vəzifələr də düşür. Məktəbdə işin müxtəlifliyi, mürəkkəbliyi və vacibliyi direktor olaraq məndən yüksək təşkilatçılıq, hadisələrin gedişini görmək və daha çox nailiyyətlər əldə etmək üçün bütün proseslərə operativ müdaxilə etməyi tələb edir. Məktəb direktoru pedoqoji kollektivdə yaxşı müəllim kimi tanınmalıdır ki, onun müəllimlərdən yüksək səviyyəli iş tələb etməyə mənəvi haqqı olsun. Müasir dövrün tələbləri məktəb direktorunun geniş dünyagörüşünə malik olmasını, həssaslıq, insani keyfiyyətlər, insanlara qarşı diqqət və qayğı və onları başa düşmək qabiliyyəti , nəzəri və praktik biliyi artırmağa fikir vermək, işə vicdanla yanaşmaq, təsərrüfat məsələlərini həll etmək bacarığı tələb edir. Bu tələblərə tam cavab verə bilmək üçün çox çalışır və problemlərin həlli üçün ciddi səy göstərirəm.



-Müəllim olaraq sizin ixtisasınız elmin ən mühüm sahəsi olan fizika üzrədir, şagirdlərin bu sahəyə marağı sizi bir pedaqoq kimi təmin edirmi?

-Biz müəllimlərin məqsədi şagirdi mənimsəmə qabiliyyətinə uyğun istiqamətləndirməkdir. İbtidai siniflərdən başlayaraq həyat bilgisi və həyati bacarıqlara əsaslanan fənlər, yuxarı siniflərdə fizika, onunla bərabər kimya, coğrafiya, tarix, astronomiya fənlərinin mənimsənilməsinə xidmət edir. Riyaziyyat fənnindən bünövrəsi zəif olan şagird fizikadan da çətinlik çəkir. Bunun üçün müəllim və valideyn qarşılıqlı əməkdaşlıq etməlidir ki, şagirdin zəif cəhətlərini birlikdə aradan qaldırsınlar. Müasir dərslər elə qurulmalıdır ki, şagirdlərdə fənnə qarşı maraq yaransın. Fənnin gözəlliklərini müəllim şagirdə elə yüksək səviyyədə çatdırmalıdır ki, o, daim yeniliklərə can atsın, bu fənni sevsin. Məktəbimizdə fizika laboratoriyası və digər şəraitlər vardır. Müəllimlərimiz dərslərin effektiv, ən əsası produktiv olması üçün İKT-nin imkanlarından, xüsusilə də interaktiv lövhədən geniş istifadə edirlər. Çünki müasir təhsil, müasir şagird və müasir dərs bizdən bunu tələb edir. Məlumdur ki, fizika həyat elmidir. Şagirdlərimizin hələ aşağı siniflərdən bu qanun və qanunauyğunluqlara, müxtəlif fiziki hadisələrə yaxından bələd olması onların həyat, təbiət haqqında dünyagörüşünü artırmaqla yanaşı, cəmiyyətdə yaşamaq üçün bir sıra həyati bacarıqların mənimsənilməsinə imkan yaradır. Şagirdlərimizə fizikanın digər elmlərlə əlaqəsi, canlı materiyanın öyrənilməsində və texnikanın inkişafında onun aparıcı rolu haqqında məlumatları çatdırmaqla, onlarda elmi dünyagörüşün formalaşması, tənqidi təfəkkürün inkişafını təmin etməyə çalışırıq. Yüksək keyfiyyətli təhsil nəticələrinin əldə olunması üçün təlim prosesində hər bir şagirdin fəal iştirakını təmin edən şərait yaradırıq. Bu zaman şagird müxtəlif səriştələrə, idraki, informativ, kommunikativ bacarıqlara yiyələnə bilər. Lakin məlumdur ki, fənni mənimsəmə fərdi xarakter daşıyır. Ümumiyyətlə şagirdlərimizin fizikaya marağı bu baxımdan məni tam qane edir.

-Müasir exnologiyaların sürətli inkişafı dövründə zamanla ayaqlasmaq və kollektivi də bu sürətə uzlasdırmaq üçün hansı üsullardan istifadə edirsiniz?

- Sürətli inkişaf prosesi göstərir ki, yeni əsrdə cəmiyyətin və insanların inkişafı üçün yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşmalı, yetişdirilməlidir. Hazırda Azərbaycan təhsilinin qarşısında duran ən əsas məsələlərdən biri yüksək mədəniyyətli, mütərəqqi dünyagörüşlü, insan hüquqları və azadlıqlarına hörmət etməklə müstəqil və yaradıcı düşünmə qabiliyyətinə malik, vətənpərvər şəxsiyyət yetişdirməkdir. Mən müəllimlərlə etdiyim müzakirələrdə bizim qarşımızda duran müasir tələbləri çatdıraraq bildirirəm ki, bu məsələlərin həlli üçün ilk növbədə müəllim özü keyfiyyətcə dəyişməlidir. Məktəb rəhbərliyi, o cümlədən, müəllimlər təlimin yeni texnologiyasını bilməli, yeni proqram və dərsliklərdən istifadə etməlidir. Müəllimlərimiz testlərin hazırlanması, məsələlərin tərtibi, qiymətləndirmə, laboratoriya işlərinin aparılması, əyani vəsaitlərin seçilməsi və təşkili, diaqram, cədvəl və sxemlərin qurulması müəllim-şagird əməkdaşlığının nəticəsi kimi qəbul edirlər. Onlar yaxşı dərk edirlər ki, müəllimin təşkilati fəaliyyətlərindən biri də dərs prosesində vaxtdan səmərəli istifadə etməkdir. Onlar yeniliklərə özləri daha dərindən yiyələnməlidir ki, sonradan bu bilikləri şagirdlərə çatdıra bilsinlər.



Məlum məsələdir ki, müəllimin yüksək bilik nümayiş etdirməsi şagirdin diqqətində olur və o, müəlliminə daha çox inanır və ondan öyrənir. Müəllimin mövzunu dərindən bilməsi onun təlim və təşkilati fəaliyyətini özündə birləşdirir, bu halda təlim metodlarını daha düzgün seçir. Təcrübəli, savadlı müəllimlər çətin və mürəkkəb mövzuları, mövzuda olan terminlərin izahatını verərək onların başa düşəcəyi tərzdə izah edirlər. Bütün bu şərtlər müasir tələblərin diktəsidir və biz də fəaliyyətimizi bu şərtlərə uyğun qururuq.

-Gündəlik qayğılar və problemlərin əhatəsində ailənizə və özünüzə vaxt ayıra bilirsinizmi?

-Təəssüf ki, lazımı qədər vaxt ayıra bilmirəm, çünki iş çoxdur. Lakin ailə üzvlərim müəllim olduqları üçün məni başa düşürlər və incimirlər. Əksinə bacardıqları qədər dəstək olurlar. Amma imkan daxilində birlikdə gözəl bir tamaşaya baxmağa gedir, bəzən isə gəzintiyə çıxırıq. Birlikdə keçirdiyimiz hər an bizim üçün bayrama çevrilir. Mənim özümə ayırdığım vaxt adətən mütaliəyə sərf olunur. Mütaliə ən gözəl istirahətdir və hər kəsə tövsiyə edirəm.

Ölkə rəhbərliyinin təhsilə qayğısını necə qiymətləndirirsiniz?

-Dövlətimizin təhsilə diqqət və qayğısının mən deyərdim ki,bütün dünyada analoqu yoxdur. Bu gün Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən hər islahat, baş verən hər bir hadisə ilk növbədə Azərbaycanın xoşbəxt gələcəyi üçün nəzərdə tutulur. Azərbaycanda təhsilə diqqət və qayğı hələ ötən əsrin 60-cı illərindən başlayıb. Ulu öndər Heydər Əliyev 1969-cu ilin yayından başlayaraq Azərbaycanda təhsil müəssisələrinin yeniləşdirilməsinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsilin keyfiyyətinə şəxsən özü nəzarət etmişdi. Azərbaycan xalqı çox sevinir ki, bu gün Prezident İlham Əliyev Ümummilli Liderin həyata keçirdiyi həmin siyasəti uğurla davam etdirir. Hazırda Azərbaycanda məktəblərin 90 faizindən çoxu kompüter və digər informasiya-kommunikasiya texnologiyaları (İKT) avadanlığı ilə təchiz edilib. Artıq respublikada 20 şagirdə bir kompyuter nisbəti həll edilib. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı onu təsdiqləyir ki, bu mühüm amil son dövrlərdə dövlət siyasətinin mühüm prinsipinə çevrilib. Biz onun bu yorulmaz fəaliyyətini alqışlayır və bəyan edirik ki, dövlət başçısının apardığı bütün islahatları tam və qətiyyətlə dəstəkləyirik.

**Hüsniyyə Əlizadə**